

# Şeir eşqin balasıdır

Bəhram Bilaloğlu gənc şairlərimizdəndir. İlham potensialı, həm güclü, həm də məhsuldar fitrətə malik birisidir.

Şairin söz dünyası olduqca zəngin həyati fəlsəfiliyə, səmimi ekzotikaya, könüldən gələn həyat ahənginin gözəlliyinə sahibdir.

*Dözürəm hər çətin sınaqlarına,*
*Dağ boyda sinəmdə söz saxlayıram.*
*Dünyadan da böyük sınaq olarmı?*
*Baxıram halıma, hey ağlayıram.*

*Dünya sınağıdır, çoxunu əzən,*
*Axşamlar gətirir qəmi, neyləyim?*
*Səhərlər xoş olmur əhvalım yenə, -*
*Yaş olur gözlərim, nəmi neyləyim?*

Sənət sevgidən yaransa da, məsuliyyət tələb edir şairdən. Dil şairlərin yaradıcılıq palitrasına uyğun olaraq inkişaf edir.

Söz dünyası, qiymətli bir sərvətin sanki mədənidir. Mədənçilik işi nə qədər ağırsa, söz işi də sənətçilik baxımından olduqca zəhmətli bir könül işidir.

Heç kim şairə deyə bilməz ki, mənim üçün bir əsər yarat.

Şair nə yaradırsa ilhamının ona verdiyi yetkiylə yarada bilir, yaza bilir.

*Çox olur sınaqdan çıxmayanları,*
*Gərək məkanında orda olasan.*
*Adamlar qəlbini qırmağa nə var, -*
*Mərhəmət göstərib qəlbi alasan.*

Bəhram Bilaloğlu gənc şair olsa da sənətdə artıq püxtələşmiş birisidir. Əlbəttə, bu onun əsərlərinin yaranması ilə deyil, təsir gücü ilə ekvivalentdir.

özəl düşüncənin həyat işığıdır gözəl şeir.

Gözəl şeir ruhun oyanıqlığının təzahürüdür.

Gözəl şeir həyatın duyğusal inikasıdır, onun adekvatı səmimiliklə doğan sənət sehridir.

*Yoxdur bu dünyanın ucu-bucağı,*
*Bir yerdən başlayıb, orda bitəsən.*
*Sığmadan cahana, həm də səmaya,*
*Dərgaha üz tutub, yolda itəsən.*

Poeziyada həyatın məntiqinə uyğun olan əsərlər həm mənəvi tərəfi ilə qüvvətli duyğuya çevrilir, həm də bədii zövqünü tamamlayır oxucunun.

Bəhram Bilaloğlu poeziyasında saflığın mərkəzində insan qəlbinin dolaşdığı sevgi dünyası var.

Sevgi dünyasını həyat yüksəkliyində inama aparmaq şairin zəfəridir.

Bəhram Bilaloğlu gənc olsa da, sənətdə artıq dünyəvi məslək kimi şeir sənətinin məsuliyyətini dərk edir. Sözü dərindən düşünmək bacarığı aşılayır öz sənətinə.

*Gizli xəzinədir insanın özü,*
*Danışa, susmaya tez tanıyasan,*
*Mənəvi qidalar alasan ondan, -*
*Baxanda gözünə, - Göz tanıyasan.*

Poeziyada duyğu tükənməzliyi var.

Poeziyada daima Zamanın həyat genişliyi var.

Qısqanclıq yad bir duyğudur poeziyaya.

Həyatdır poeziyanın həyat səhnəsi!

Uğurlar arzulayıram Bəhram Bilaloğluna!

***Nəsib ABİD***